UOT 902

İRADƏ AVŞAROVA

Bakı Dövlət Universiteti Tarix fakültəsi
Arxeologiya və Etnoqrafiya kafedrasının dosenti, t.ü.f.d.
iradaavshar@icloud.com

AZƏRBAYCANIN ANTROPOMORF QABLARI HAQQINDA

DOI: https://doi.org/10.36719/2708-065X/112/188-191

Antik dövrdə Azərbaycan ərazisində yaşamış tayfaların dini dünyagörüşlərinin inkişafında Qarabağın eneolit və tunc dövrü tayfalarının dini-ideoloji ənənəsi özünü göstərir. Elə həmin səbəbdən də antik dövrün maddi mədəniyyət nümunələrində yaranışla bağlı kultların izlərinə çox rast gəlinir. Mövcud cəmiyyətdə əkinçi və maldar tayfaların yaşadığı çağ, müxtəlif təsərrüfat sahələrinin, o cümlədən sənətkarlıq və incəsənətin çiçəkləndiyi dövr sayılır. Məlumdur ki, incəsənət hər zaman insanların yaradıcılığı ilə bağlı olmaqla yanaşı, həm də insanlar arasında ünsiyyət vasitəsi olmuşdur. Aparılan arxeoloji qazıntılar zamanı ərazisində yaşamış tayfaların çoxçeşidli incəsənət və sənətkarlıq kolleksiyası toplanmışdır. Həmin kolleksiyalar içərisində dövrün tayfalarının dini-ideoloji düşüncələrinin təsirindən doğan, qadın obrazlı artefaktları nadir sənət nümunələri hesab etmək olar.

Açar sözlər: din, ideologiya, qadın, məhsuldarlıq, sənətkarlıq.

Giriş. Azərbaycan ərazisində yaşamış qəbilələ və tayfaların dini dünyagörüşlərində ən geniş yayılmış kultlardan biri məhsuldarlıqla bağlı olmuşdur. Ərazidən əldə olunmuş qadın obrazlı artefaktlar belə özündə yer kultu və torpaqla bağlı olan məhsuldarlıq kultlarını, o cümlədən nəsilartımı ideyasını təmsil edir. Arxeoloji abidələrdə həmin kultların daşıyıcıları antropomorf fiqurlar və özündə antropomorf formalar daşıyan küpə tipli qablardır.

Azərbaycanda antropomorf formalı terrakotlara, əsasən ocaqların yanlarında, dini ayin keçirilən ibadətgahlarda və qəbir abidələrində rast gəlinir [1, s.171-174].

Antik dövrün dekorativ-tətbiqi sənət nümunəsi olan antropomorf obrazlı qabların bir neçəsi Xınıslıdan əldə olunmuşdur. Qablar e.ə. III-I minilliyə aid olunur. Xınıslıdan aşkar olunmuş həmin qablar Milli Azərbaycan Tarix Muzeyində saxlanılır.

Tarix Muzeyində AF 21554 inventar nömrəsi altında saxlanılan küpə tipli qab [2; 3, s.123] sarı gildən qadın obrazında sxematik şəkildə hazırlanmışdır. Qabın üzərinə qırmızı boya (anqob) tədbiq olunmuşdur. Bu üsulla qabların üzərinin boyanması hələ eneolit dövrü sənətkarlarına məlum idi. Həmin dövrdə gil qabların hazırlanmasında tətbiq olunan üsullardan biri də onların üzərinin anqobla örtülməsi idi.

Məlum olduğu kimi eneolit dövründən başlayaraq qabların üzərinin boyanması və ya bəzədilməsi dekorativ-tətbiqi sənətin özəyini təşkil edirdi. Təbii ki, küpə tipli qab dulus çarxında formalaşdıqdan sonra, onun boğazının yuxarı hissəsinə önə çıxmış qadın başı yapma üsulu ilə tədbiq olunmuşdu. Maraqlıdır ki, küpənin iki qulpu qadının yuxarı-başına doğru qalxmış qollarını özündə əks etdirir (sanki saçlarına düzən verir). Qolların üzərinə və küpün boğazının arxa hissəsinə çıxıntılı (baralyef) formada tökülmüş saçları lent şəklinə salınmış gildən hazırlanaraq üfüqi və şaquli istiqamətlərdə düz və hörük formasında çox orjinal şəkildə verilmişdir. Saçların arxasında bəzək rolunu oynayan dairəvi şəkildə burulmuş formalar nəzərə çarpır. Qadının qaşları görünməz dərəcədə çox incəliklə aypara formasında olub, gözləri böyük olub, içəriyə doğru batıqdır. Qulağının üzərində spiral şəkilli yapma sırğaları diqqət çəkir. Məğrur duruşuna görə burnu yuxarıya doğru dik dayanmışdır. Ağzı kəsik xətlə açıq vəziyyətdə verilmişdir. Boğazı uzundur. Sinə bəzəyi kimi uzunsov və fərqli yapma formalı lent şəkilli asmalardan istifadə olunmuş, döşlər də sanki asma bəzək rolunu oynamışdır. Ümumilikdə qabın gövdəsi özündə qadının bədənini simvolik şəkildə xarakterizə edir (şəkil 1).

Xınıslıdan aşkar olunmuş digər qab Milli Azərbaycan Tarix Muzeyində AF 21555 inventar nömrəsi altında saxlanılır [2; 4, s. 41, şək.27]. Küpə tipli bu qab qırmızı gildən hazırlanmışdır, oturacağı dabanlıdır. Bu qab da digər qab kimi özündə qadın obrazını əks etdirir. Qaşları qısa, gözləri dairəvi

lent şəklinə salınmış gillə işləmişdir, burnu çıxıntılı və dikdir. Saçları qulaqların üzərini hörük şəkildə örtür. Boynunun arxasında isə saçlar hörülərək yarımdairə şəklində verilmişdir. Boynunda burma üsulu ilə işlənmiş tunc dövrünün qadın bəzəkləri üçün xarakterik olan qrivin vardır [5, s.12-14, şək.9-10]. Boyun bəzəyindən aşağıda ehtimal ki, lent şəkilli gildən burularaq üst geyiminin yaxası, ondan altda isə üzərində naxış elementlərini xatırladan çıxıntılı döşləri nəzərə çarpır. Qadının kürək hissəsində küpənin ilgəkvari tək qulpu verilmişdir. Ümumilikdə qabın gövdəsi özündə qadının bədənini simvolik şəkildə xarakterizə edir (şəkil 2).

Xınıslıdan aşkar olunmuş digər qab Milli Azərbaycan Tarix Muzeyində AF 21462 inventar nömrəsi altında saxlanılır [2; 3, s.123]. Küpə tipli bu qab boz rəngli gildən hazırlanmışdır. Qabın boğazının bir hissəsi sınmışdır. Sxematik qabın obrazını özündə ehtiva edən bu qabın boğazında yapma üsulu ilə işlənmiş qalın boyun bəzəyi kəsmə xıtlərlə verilmiş, orta hissədə ovalvari asma ilə tamamlanmışdır. Yuxarıdakılardan fərqli olaraq bu qabda qadının əlləri realizm üslubunda sinə altında verilmişdir. Sağ qolunda beş, sol qolunda üç bilərzik diqqət çəkir. Qabın gövdə hissəsi özündə qadının bədənini simvolik şəkildə xarakterizə edir (şəkil 3).

Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, antik dövr tayfalarına məxsus maddi-mədəniyyət nümunələri estetik funksiyalar daşımaqla yanaşı, əsasən dövrünün insanlarının ibtidai dini təsəvvürləri ilə bağlı yaranmışdır.

Ümumiyyətlə, ibtidai insanların dini dünyagörüşlərinin nə üçün və nə zaman yarandığı haqda dəqiq fikir söyləmək çox çətindir. Sadəcə olaraq onu deyə bilərik ki, qədim insanların dini dünyagörüşləri minilliklər boyu inkişaf edib, əsasən qeyri incəsənətdən yaranmış, insanların özü ilə birgə inkişaf edərək formalaşmışdır. Azərbaycan ərazisində fəlsəfi-dini təfəkkürün inkişafı əsasən VIII minillikdən başlamış və bizim eranın VIII əsrinədək davam etmişdir.

Qədim dövrlərdən Azərbaycan tayfaları arasında ən geniş yayılmış kultlardan biri də Yer kultu olmuşdur. Yer kultu məhsuldarlıq inancı ilə bağlı yaranmış və bu kult torpağın əkib-becərilməsi, gücü və artım ideyası ilə bağlı olmuşdur. Həmin kultla bağlı inancların inkişafı nəticəsində qadına inam və pərəstiş daha da artmmış, elə həmin səbəbdən də məhsuldarlıq və nəsilartımı ilə bağlı kultlar daha çox qadın obrazı şəklində maddi mədəniyyətdə yer almışdır.

Qədim dini görüşlərdə Günəş kişi başlanğıcı ilə bağlansa da, qadın yer-torpaq kultu ilə, məhsuldarlıq və nəsil artımı ilə bağlanmışdır.

Nəticə. Beləliklə, antik dövr abidələrində tədqiq olunan artefaktlar sübut edir ki, dövrün dulusçuları hələ eneolit, tunc, dəmir dövrlərində əldə etdikləri texniki inkişaf səviyyəsinə görə bədii dulusçuluq sənəti sahəsində ən yüksək nailiyyətlərə imza atmış və öz təcrübələrini nəsildən-nəslə ötürərək sonrakı dövrlərin tarixi mərhələlərində də qoruyub saxlaya bilmişlər.

Tədqiqatlardan göründüyü kimi, qədim dövr sənətkarlarının müxtəlif üslublarda yaratdıqları bədii keramika nümunələri özündə etnikliyi yaşatmaqla yanaşı, fəlsəfi fikirlərə, ətrafda baş verən hadisələrə fərqli mövqelərdən yanaşan insanların yaradıcılıq dünyasının məhsuludur. Həmin maddi mədəniyyət nümunələri bir-birindən fərqliliyi, orijinallığı, üslub rəngarəngliyi ilə diqqətimizi cəlb edir, eyni zamanda bir çox mifoloji elementləri özündə qoruyub saxlayır. Əldə olunan bu sənət əsərlərinin ayrı-ayrılıqda hər birinin öz əhəmiyyəti və öz tarixi vardır.

ƏDƏBİYYAT

1. Османов Ф.Л. Терракотовые статуэтки Азербайджана // – Tarix və onun problemləri, № 1, – Bakı: – Adiloğlu – 1998, – s.166-175.
2.Azərbaycanın Antropomorf terrakotları. Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyi. Kataloq / – Bakı, – Ziya-Nurlan, – 2010.
3. Халилов, Д.А. Материальная культура Кавказской Албании (IV до н.е.- III в. н.е.) / Д.А. Халилов. – Баку: Элм, – 1984, – 236 с.
4. Рзаев Н.И. Искусство Кавказской Албании IV до н.е.- VII в. н.е. / Н.И. Рзаев. – Баку: Элм, – 1976, – 255 с.
5. Avşarova, İ.N. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı (e.ə. XIV-VII əsrlər) / İ.N. Avşarova. – Bakı: Nurlan, – 2007, – 190 s.



Şəkil 1. Xınıslıdan əldə olunmuş Antropomorf qab



Şəkil 2. Xınıslıdan əldə olunmuş Antropomorf qab



Şəkil 3. Xınıslıdan əldə olunmuş Antropomorf qab

ИРАДА АВШАРОВА
Исторический факультет Бакинского Государственного Университета, Кафедра Археологии и этнографии, доктор философии по истории, доцент

ОБ АНТРОПОМОРФНЫХ СОСУДАХ ДРЕВНЕГО ПЕРИОДА АЗЕРБАЙДЖАНА

Религиозно-идеологическая традиция племён неолита, энеолита и бронзового века нашла отражение в развитии религиозных мировоззрений племён, проживавших на территории Азербайджана в древности. По этой же причине следы культов, связанных с творением, часто встречаются в образцах материальной культуры античного периода.

В современном обществе эпоха земледельческих и скотоводческих племён считается периодом расцвета различных отраслей экономики, включая ремёсла и искусство. Известно, что

искусство всегда было связано с человеческим творчеством, а также служило средством общения между людьми.

В ходе археологических раскопок была собрана разнообразная коллекция искусства и ремесла племён, проживавших на этой территории. Среди этих коллекций артефакты с женскими образами, возникшие под влиянием религиозно-идеологических воззрений племён того периода, можно считать редкими образцами искусства.

Ключевые слова: религия, идеология, женщины, продуктивность, мастерство.

IRADA AVSHAROVA
Baku State University History Faculty,
Department of Archaeology and Ethnography
PhD, Associate Professor

ABOUT ANTHROPOMORPHIC VESSELS OF THE ANCIENT PERIOD OF AZERBAIJAN

The religious and ideological tradition of the Neolithic, Eneolithic and Bronze Age tribes is reflected in the development of religious worldviews of the tribes that lived in the territory of Azerbaijan in Ancient times. For the same reason, traces of cults related to creation are often found in the material culture examples of the Ancient Period.

In the existed society, the era of agricultural and cattle-breeding tribes is considered to be the period when various economic sectors, including crafts and art, flourished. It is known that art has always been associated with human creativity, as well as a means of communication between people.

During the archaeological excavations, a diverse collection of arts and crafts of the tribes that lived in the territory was collected. Among these collections, artifacts with woman images, arising from the influence of the religious and ideological thoughts of the tribes of the period, can be considered rare examples of art.

Keywords: religion, ideology, woman, productivity, craftsmanship.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 dekabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Hicran Mahmudova, t.e.d. Əmrah Dadaşov.